

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 44 (23.206)

2 mart 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Prezident İlham Əliyev çıxışında deyib ki, ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyur, bütün sahələrdə çox ciddi islahatlar aparılır. İslahatların yeni mərhələsinin anonsu keçən il prezident seçkilərindən sonra verilib. Ciddi islahatların hazırlanması üçün keçən ilin ikinci yarısında çox fəal iş aparılıb və bu ilin əvvəlindən genişmiqyaslı islahatlara start verilib. Bu islahatlar bütün sahələri əhatə edəcək. İslahatlar yenilik, yeni yanaşma, mövcud problemlərin həlli deməkdir. Bu baxımdan 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır.

Dövlətimizin başçısı vurğulayıb ki, gənc nəsil milli ruhda tərbiyə olunmalıdır. Buna nail olmaq üçün, əlbəttə ki, əsas amil bizim mədəniyyətimizdir, incəsənətimizdir, ədəbiyyatımızdır, ana dilimizdir, milli təfəkkürümüzdür. Ona görə bu məsələlərlə və istənilən məsələ ilə bağlı bu gün mən sizinlə danışmaq istərdim.

Sonra çıxışlar olub.

Sonda Prezident İlham Əliyev qaldırılan vacib məsələlərin həlli ilə bağlı tapşırıqlarını verib.

## Azərbaycan-Birləşmiş Millətlər Təşkilatı əlaqələri inkişaf edir

***Beynəlxalq münasibətlər sisteminin tənzimlənməsində əhəmiyyətli rol oynayan Birləşmiş Millətlər Təşkilatı dünyada sülhün və təhlükəsizliyin təmin olunması kimi mühüm bir missiyanı yerinə yetirir. Bu mənada, dünyaya inteqrasiya kursunu seçən müstəqil Azərbaycan Respublikası qlobal siyasi proseslərə əsaslı təsir imkanları olan BMT ilə əməkdaşlığa böyük əhəmiyyət verir.***

Azərbaycan 1992-ci il martın 2-də dünyanın ən mötəbər dövlətlərarası təşkilatına – BMT-yə üzv qəbul edilib. BMT Baş Məclisinin həmin tarixdə keçirilən 46-cı sessiyasında Azərbaycan Respublikasının BMT-nin üzvlüyünə qəbul olunması barədə qətnamə qəbul olunub. Təşkilatın 181-ci üzvü olan Azərbaycanın üçrəngli dövlət bayrağı martın 2-də Nyu-Yorkda qaldırılıb. Həmin il may ayının 6-da isə Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılıb.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizin BMT ilə əlaqələri sistemli xarakter daşıyıb, bu mötəbər qurumun platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb edib. Müstəqil Azərbaycan dövlətinin başçısı kimi ilk dəfə məhz ulu öndər Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edərək Azərbaycan, Qafqaz regionu və ümumilikdə, dünya üçün həyati əhəmiyyət kəsb edən qlobal məsələlərlə bağlı ölkəmizin mövqeyini dünya ictimaiyyətinə çatdırıb. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən BMT Baş Məclisinin xüsusi təntənəli iclasında və 2000-ci ilin sentyabr ayında BMT-də minilliyin sammitində çıxışı zamanı da ulu öndər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Azərbaycanın mövqeyini bir daha bəyan edib. Bu müddət ərzində Azərbaycan həm də BMT-nin müxtəlif orqanları ilə səmərəli əməkdaşlıq qurub. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, YUNESKO, YUNİSEF və digər qurumlarla sıx əməkdaşlıq edən ölkəmiz BMT Təhlükəsizlik Şurasına üzv olan dövlətlərlə də əlaqələrini gücləndirib.

Azərbaycanın BMT ilə münasibətlərinin təməlində ümummilli liderin müəyyənləşdirdiyi üç mühüm ümumi prinsip dayanır. Bunlar tərəfdaşlıq, davamlı sülh və təhlükəsizlikdir. Ulu öndərimizin böyük uzaqgörənliklə işləyib hazırladığı xarici siyasət kursunu yeni dövrün tələblərinə uyğun zənginləşdirərək davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanın beynəlxalq arenada nüfuzunun daha da yüksəlməsinə, müstəqil siyasət yeritməklə milli maraqların ən yüksək səviyyədə qorunmasına, Azərbaycan-BMT əlaqələrinin yeni mərhələdə inkişafına nail olub.

Son 16 ildə ölkə başçısı tərəfindən aparılan düzgün xarici siyasət nəticəsində ölkəmiz bu mötəbər qurumda söz sahibi olan dövlətə çevrilib. İlk dəfə Azərbaycan Respublikasının Baş naziri kimi 2003-cü ilin sentyabrında BMT Baş Assambleyasının 58-ci sessiyasında çıxış edən cənab İlham Əliyev beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlər arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə BMT Təhlükəsizlik Şurasının şəraitə uyğun çevik və adekvat münasibət göstərə bilməməsini qeyd edərək islahatların vacib məsələyə çevrildiyini bəyan edib. BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin (822, 853, 874 və 884 saylı qətnamələr) hələ də yerinə yetirilmədiyini vurğulayıb və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını irəli sürüb. Bununla yanaşı, həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınıb. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci plenar iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamə qəbul edilib.

2008-ci il martın 14-də BMT Baş Məclisinin geniş iclasında – 62-ci sessiyanın gündəliyində 20-ci bənd kimi duran "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət barədə" qətnamə layihəsinin müzakirəsini xüsusi xatırlamaq lazımdır. Həmin qətnamə Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstək verib, işğal olunmuş bütün ərazilərdən Ermənistan qüvvələrinin tam və qeyd-şərtsiz çıxarılmasını tələb edib.

Dövlətimizin başçısı 2010-cu ilin sentyabrında BMT Baş Məclisinin 65-ci sessiyasında çıxış edərək təşkilatın üzvlərinin diqqətini bir daha Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə yönəldib. Ölkə rəhbəri Ermənistanın münaqişə zamanı çox ağır beynəlxalq cinayətlər törətdiyini, etnik təmizləmə siyasəti həyata keçirdiyini, işğal edilmiş Azərbaycan ərazilərində monoetnik mədəniyyətin yaradılmasına çalışdığını bildirib. BMT Baş Assambleyasının 2017-ci il sentyabrın 20-də Nyu-Yorkda keçirilmiş 72-ci sessiyasında Prezident cənab İlham Əliyevin dərin məzmunlu çıxışı xarici siyasət sahəsində dövlətimizin prinsipial mövqeyini və prioritetlərini növbəti dəfə dünyaya nümayiş etdirib.

2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə Şərqi Avropa dövlətləri qrupundan namizədliyini irəli sürən Azərbaycanın 155 dövlətin dəstəyini alması tarixi uğurdur. Ölkəmiz 2011-ci il oktyabrın 24-də Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilən ilk ölkə kimi tarixə düşüb, 2012-ci ilin may və 2013-cü ilin sentyabr aylarında Təhlükəsizlik Şurasına sədrlik edib. Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, bütövlükdə, müasir tariximizin ən əlamətdar, qürur doğuran hadisələrindən biri kimi yadda qalıb. Bu tarixi hadisə, ilk növbədə, ölkəmizin son dərəcə sabit və uğurlu, eyni zamanda tarazlı xarici siyasət yürütdüyünü təsdiqləməklə yanaşı, müstəqil Azərbaycanın beynəlxalq miqyasda artan nüfuzunun parlaq təcəssümü kimi dəyərləndirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Müstəqilliyimiz dövründə belə böyük uğurun əldə edilməsi, doğrudan da, tarixi nailiyyətdir. Biz müstəqil ölkə kimi özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu göstərir ki, Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib. Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir".***

BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi ölkəmiz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təşkilatın qəbul etdiyi qərarların icrası istiqamətində fəal iş aparıb. Məhz bu məqam Azərbaycanın əldə etdiyi uğurun miqyası və mahiyyəti barədə daha dolğun və aydın təsəvvür formalaşdırır. BMT Təhlükəsizlik Şurasına ilk sədrlik ölkəmiz üçün böyük sınaq olsa da, bütün vəzifələrin öhdəsindən layiqincə gəlinib. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına birinci sədrliyi müddətində şura tərəfindən üç qətnamə qəbul edilib. Təhlükəsizlik Şurasına ikinci sədrliyi müddətində şuranın gündəliyi beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması ilə əlaqədar mühüm məsələləri əhatə edib. BMT tarixində ilk dəfə olaraq respublikamızın təşəbbüsü ilə "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda qurumun yüksək səviyyəli iclası keçirilib. İclasın məqsədi BMT və üzv dövlətlərin sayına görə dünyada ikinci ən böyük hökumətlərarası təşkilat olan İslam Əməkdaşlıq Təşkilatı arasında beynəlxalq sülh və təhlükəsizliyin qorunması üzrə əməkdaşlığın hazırkı vəziyyətinin nəzərdən keçirilməsi və tərəfdaşlıq əlaqələrinin daha da gücləndirilməsinə dair mümkün birgə fəaliyyət üzrə müzakirələrin aparılması olmuşdur.

Azərbaycanın Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı da daim bu beynəlxalq qurumun diqqətində olub. 1997-ci ilin mayında Birləşmiş Millətlər Təşkilatının rezident əlaqələndiricisi Naxçıvana səfər edib, görüşlər keçirilib, muxtar respublikanın blokada şəraiti, iqtisadiyyatın inkişaf etdirilməsi məqsədilə həyata keçirilən işlər və digər məsələlər barədə müzakirələr aparılıb. BMT nümayəndələri 2013-cü ilin may ayında muxtar respublikaya növbəti səfər ediblər. Ötən dövrdə muxtar respublikada Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Kənd İnvestisiya Proqramı üzrə layihələri icra olunub. 2016-cı il mayın 12-15-də Naxçıvan Dövlət Universitetində "BMT Modeli" konfransı keçirilib. 2017-ci ilin oktyabrında isə Naxçıvan Biznes Mərkəzində BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəsinin iştirakı ilə "Sığınacaqla bağlı müraciətlərin yönləndirilməsi mexanizminin təkmilləşdirilməsi" mövzusunda regional təlim keçirilib.

Ötən il Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı missiyasını uğurla yerinə yetirməsi həm də BMT-nin dünyada sülhün və təhlükəsizliyin təmin olunması işinə töhfə kimi dəyərləndirilir. BMT-nin əsas məramına xidmət edən bütün bu amillərin hər biri 2018-ci ildə Naxçıvan nümunəsi timsalında dünyaya təqdim edildi.

*Bu gün Azərbaycan beynəlxalq aləmdə öz layiqli yerini tutub, BMT-də söz sahibi olan dövlətlərdən birinə çevrilib. Bu isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilən xarici siyasət kursunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf və davam etdirilməsinin nəticəsidir.*

**"Şərq qapısı"**

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi martın 1-də Babək Rayon Mərkəzi Xəstəxanasında səyyar kollegiya iclası keçirib.***

## Səyyar kollegiya iclası keçirilib



Nazir Niyazi Novruzov çıxış edərək bildirib ki, muxtar respublika rəhbərinin qayğı və diqqəti nəticəsində bu gün səhiyyə müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla, yeni texnologiyalarla müayinə və müalicə işləri aparılır. Babək Rayon Mərkəzi Xəstəxanası da belə səhiyyə müəssisələrindən biridir. Burada yüksəkixtisaslı həkimlər müasir tibbi avadanlıq və cihazlarla müayinə, müalicə işləri aparırlar. Naxçıvan Muxtar Respublika Xəstəxanası, Diaqnostika-Müalicə Mərkəzi ilə yanaşı, Bakı şəhərindən yüksəkixtisaslı mütəxəssislərin dəvət olunaraq müxtəlif cərrahi əməliyyatlar aparmaları, humanitar tibbi aksiyaların keçirilməsi ənənə halını alıb. Aztəminatlı ailələrdən olan xəstələrin muxtar respublikadan kənara getmədən mürəkkəb cərrahi əməliyyatların təşkili onlara həm maddi, həm də mənəvi dəstək olub. Rayonda sağlamlığa mənfi təsir edən faktorların aradan qaldırılması əhalinin hər bir təbəqəsinin sağlamlığının qorunması işində əsaslı dönüş yaradıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Ümumi işlər sektorunun aparıcı məsləhətçisi Məhsəti Allahverdiyeva Babək rayonunda əhaliyə göstərilən mama-ginekoloji xidmətin, Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov muxtar respublikada dializ müalicəsi alan xroniki böyrək çatışmazlığı xəstələrinə göstərilən tibbi xidmətin vəziyyəti haqqında çıxış ediblər.

Kollegiya iclasında müzakirə olunan məsələlərlə əlaqədar müvafiq qərarlar qəbul olunub.

Sonda tədbir iştirakçıları Babək Rayon Mərkəzi Xəstəxanasının maddi-texniki bazası ilə tanış olublar.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

Naxçıvan Muxtar Respublikası – 95

# Naxçıvanın Azərbaycanın dövlətçilik tarixində mühüm yeri vardır

*Müsahibim qədim diyarımızın dövlətçilik tarixi ilə bağlı sanballı elmi tədqiqatların müəllifi, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevdir*

*– İsmayıl müəllim, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 8 fevral tarixli Sərəncamına əsasən "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" adlı kitabınızın elm sahəsində Naxçıvan Muxtar Respublika mükafatına layiq görülməsi Naxçıvan elmi mühitində bayram əhval-ruhiyyəsi yaradıb. Kitab həm də muxtariyyətimizin 95 illik yubileyinə dəyərli töhfədir. Bu münasibətlə sizi redaksiyamızın kollektivi adından təbrik edirəm.*

– Çox sağ olun. Mən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığımı bildirirəm ki, kitaba bu qədər yüksək dəyər vermişdir. Bu, ümumilikdə, muxtar respublikada hər bir elm adamına verilən qiymətdir. Qeyd etmək istəyirəm ki, Naxçıvanda elmi mühitin formalaşması Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılmasından sonra canlanmışdır. Azərbaycan xalqının ümummilli lideri, dünya şöhrətli görkəmli siyasi xadim Heydər Əliyev belə bir bölmənin yaradılmasına böyük siyasi uzaqgörənliklə yanaşaraq Sərəncam vermişdi. Ulu öndərimiz AMEA Naxçıvan Bölməsinin yaradılmasına həsr edilmiş müşavirədəki nitqində Naxçıvan tarixinin zəif öyrənilməsi məsələsindən bəhs edərkən demişdir ki, Naxçıvanın qədim və zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycan tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvan tarixi haqqında, Naxçıvanın bir diyar kimi öyrənilməsi barədə çox az iş görülübdür. Göründüyü kimi, ulu öndər Naxçıvan tarixi ilə bağlı bölmə qarşısında çox ciddi vəzifə qoymuşdu. Fəaliyyətimiz dövründə bu vəzifəni yerinə yetirməyə çalışmış, Naxçıvan tarixi ilə bağlı ümumiləşdirici əsərlər, kitab və monoqrafiyalar, elmi məqalələr yazılmış, elmi konfranslar keçirilmişdir. Ən ciddi fundamental əsər çoxcildli Naxçıvan tarixidir. Mükafata layiq görülmüş kitab Naxçıvanın Azərbaycan dövlətçilik tarixində tutduğu yer və oynadığı rolla bağlıdır.

*– 8 fəsil, 27 yarımfəsil, nəticə və biblioqrafiyadan ibarət olan kitabınızda Naxçıvan tarixinin ayrı-ayrı dövrlərini tədqiq etmisiniz. Sizcə, muxtariyyətin Naxçıvanın tarixi-siyasi müqəddəratında rolu nədən ibarətdir?*

– Naxçıvan qədim Azərbaycan ərazisidir və bu ərazidə yaşayanlar köklü azərbaycanlılardır. Hansı imperiyanın tərkibində olmasından asılı olmayaraq, əhali öz milli kimliyini qoruyub saxlamışdır. Rusiya-İran və Rusiya-Türkiyə müharibələrindən sonra Azərbaycan torpaqlarına, eləcə də Naxçıvan ərazisinə məqsədli olaraq ermənilər köçürülmüşdür. Əsas məqsəd Azərbaycan ərazisində erməni dövləti yaratmaq idi. Çünki vaxtilə Osmanlı dövləti ərazisində belə bir dövlət yaratmaq istəmiş, lakin buna nail ola bilməmişlər. İrəvan ətrafında məskunlaşdırılan ermənilər üçün 1918-ci ilin may ayında Ararat Respublikası yaradıldı və İrəvan şəhəri ona paytaxt kimi hədiyyə verildi. Elə bu vaxtdan ermənilər ərazilərini genişləndirmək üçün fəaliyyətə keçdilər. Qarabağ, Zəngəzur və Naxçıvana yiyələnmək üçün silahlı mübarizəyə başladılar. Onlara ABŞ, İngiltərə və Rusiya hər cür köməklik edirdi. "Şərursuz və Naxçıvansız Ermənistan yaşaya bilməz" fikrini ortaya atmaqla Naxçıvana, Şərura silahlı qüvvələr yeritdilər, qırğınlar törətdilər, yerli azərbaycanlıları ərazidən qovmağa çalışdılar. Belə bir fakt məlumdur ki, 1918-1920-ci illərdə Naxçıvan bölgəsinin əhalisi 38 faiz azalmışdı. Həmin dövrdə Naxçıvandakı ictimai-siyasi proseslər bu hadisələrin təsiri altında cərəyan edirdi.

Naxçıvanın muxtariyyət statusunun bu diyarın tarixi-siyasi həyatında müstəsna rolu olmuşdur. Əgər muxtariyyət statusu qazanılmasaydı, ərazini qoruyub saxlamaq mümkün olmayacaqdı. Ermənilər çalışırdılar ki, Naxçıvanı Azərbaycandan ayırsınlar. Yalnız bu halda onu işğal edə bilərdilər. Təsadüfi deyildir ki, 1920-ci il dekabrın 28-də Ermənistan Naxçıvanın müstəqilliyini (Azərbaycanın tərkibində yox) tanımaq haqqında bəyanat verdi. Naxçıvanlılar inadlı mübarizə aparır və bəyan edirdilər ki, Naxçıvan mədəni dövlətlərin alovlarında məhv olmağa razı olar, ancaq Azərbaycandan ayrılmaz.

*– 95 il əvvəl Naxçıvan Muxtar Respublikasına muxtariyyət verilməsəydi, Naxçıvanın aqibəti necə olardı?*

– Sizin də qeyd etdiyiniz kimi, 95 il bundan əvvəl Naxçıvan Muxtar Respublikası yaranmışdır. Yəni 1924-cü il 9 fevralda Azərbaycan MİK-in Rəyasət Heyətinin dekreti ilə Naxçıvan MSSR yaradılmışdır. Muxtariyyətin əldə edilməsindən isə 98 il keçir. 1921-ci il yanvarın əvvəlində Naxçıvanda ümumxalq səsverməsi keçirilmiş və əhalinin 90 faizindən çoxu Naxçıvanın Azərbaycanın tərkibində qalmasına səs vermişdir.

Naxçıvanın muxtariyyəti məsələsi Zəngəzurun 1919-cu ilin noyabr ayında erməni qoşunları tərəfindən tutulmasından və 1920-ci il Gümrü müqaviləsi ilə Rusiyanın Zəngəzuru Ermənistan ərazisi kimi tanımasından sonra ortaya çıxdı. Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan Azərbaycandan ayrı düşdü, onunla heç bir sərhəd xətti olmadı. Bu halda Naxçıvan rayon, qəza hüququnda Azərbaycanın tərkibində qala bilməzdi. Bu məsələdən bəhs edən ulu öndərimiz Heydər Əliyev demişdir: ***"...əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi".***

Naxçıvanın muxtariyyət statusu məsələsi həm RK(b)P Mərkəzi Komitəsində, həm də Rusiya-Türkiyə danışıqlarında müzakirə edilmişdi. MK-nın qərarında da, Moskva müqaviləsində (16 mart 1921-ci il) də Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdi. Moskva müqaviləsinin üçüncü maddəsində yazılmışdır ki, Naxçıvan vilayətinin Azərbaycan Respublikasının himayəsi altında və həmin vilayətin Azərbaycan tərəfindən heç bir üçüncü dövlətə güzəşt edilməməsi şərtilə muxtar ərazi təşkil etməsinə razıdırlar. Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında imzalanan Qars müqaviləsində (13 oktyabr 1921-ci il) Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdu.

Naxçıvanın muxtariyyət əldə etməsində Behbud ağa Şahtaxtinskinin Leninə yazdığı məktubların da mühüm əhəmiyyəti olmuşdu. Naxçıvan milli-mədəni muxtariyyətə yox, inzibati-ərazi muxtariyyətinə nail oldu və bu da Naxçıvanı qoruyub saxladı.



*– Naxçıvan muxtariyyət illərində... Naxçıvan blokada illərində... Düşünürəm ki, muxtariyyətimiz nə qədər qürurvericidirsə, bir qərinəyədək dövrü əhatə edən blokada şəraitində Naxçıvanın üzləşdiyi çətinliklər, bu çətinliklərə sinə gərməsi, blokada və tərəqqini bir arada yaşaya bilməsi də bir o qədər qürurvericidir.*



– Naxçıvan muxtariyyət illərində çətinliklərlə, haqsızlıqlarla qarşılaşsa da, bu illəri şərəflə yaşayıb, qarşıya çıxan çətinlikləri uğurla aradan qaldırıb. Muxtar respublikanın yaranmasının 8 dəfə qeyd olunması dediklərimizi təsdiq edir.

Naxçıvanın, bütövlükdə, Azərbaycanın qarşılaşdığı ən çətin dövr keçən əsrin 90-cı illəri olmuşdur. Sovet rəhbərlərinin ikiüzlü siyasətləri, milli qarşıdurmalara rəvac verməleri vəziyyəti çətinləşdirmişdi. Xalq hərəkatını boğmaq üçün ermənilərdən bir vasitə kimi istifadə edilməsi tarixi faktdır. Həmin dövrdə Naxçıvanın SSRİ-nin tərkibindən çıxması ən böyük etiraz aktı idi. Ulu öndər Heydər Əliyevin Naxçıvanda olması Tanrının işi idi, o, Naxçıvanda olmasaydı, Naxçıvanı daha dəhşətli bəlalar gözləyərdi. Blokada vəziyyətində əhalinin yollar araması, Naxçıvanın böyük rəhbərinin qonşu dövlətlərlə yaratdığı əlaqələr həm bu diyarın təhlükəsizliyini təmin etmiş, həm də tərəqqiyə yol açmışdı.

"Blokadadan bir bəhanə kimi istifadə olunmamalıdır" çağırışı ötən dövrdə əhalinin fəal həyat mövqeyi tutmasına səbəb oldu. Naxçıvanlılar blokadanın yaratdığı çətinliklərə sinə gərdilər, tərəqqiyə nail oldular. Naxçıvan rəhbərinin işgüzarlığı, qətiyyətli mövqeyi, idarəetmə bacarığı həlli müşkül olan məsələləri də reallığa çevirdi.

*– 95 ilin son 25 ilə yaxın dövrü isə tariximizin ən şanlı səhifələrini təşkil edir.*

– XX əsrin 70-80-ci illərində Naxçıvan inkişafın yeni mərhələsinə qədəm qoydu. Azərbaycanda rəhbərliyə gələn görkəmli dövlət xadimi ölkəmizin, eləcə də Naxçıvanın hərtərəfli inkişafına çalışırdı. Muxtar respublikada yeni sənaye müəssisələri, sosial və inzibati binalar, mikrorayonlar, təhsil, səhiyyə müəssisələri tikilirdi...

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son 25 ilə yaxın bir dövrdə baş verən dəyişikliklər, inkişaf Naxçıvanda heç vaxt bu səviyyədə olmamışdır.

Tariximizin ən şanlı səhifələri bu dövrə təsadüf edir. Naxçıvanın hərtərəfli və dinamik inkişafı ilbəil artır. Naxçıvan üçün xarakterik olmayan sənaye müəssisələri istifadəyə verilmiş, yüz faiz qazlaşdırma həyata keçirilmiş, güclü iqtisadi potensial yaradılmışdır. Qibtəediləcək səviyyədə səliqə-sahman, quruculuq, abadlıq, yaşıllaşdırma tədbirləri, işə məsuliyyətli münasibət kimi inkişaf və keyfiyyətlər yaradılmışdır. İnkişafdan intibaha doğru inamla irəliləyiş özünü qabarıq göstərir. Naxçıvan Muxtar Respublikası cənnət bir məkana çevrilir.

*– Muxtariyyət və müstəqillik illərində elmin inkişafı tempini necə qiymətləndirirsiniz?*

– Naxçıvanda tarixən elm inkişaf edib, tanınmış elm adamları formalaşıb. Təbii ki, hər cür müqayisə zərərli olsa da, müqayisəsiz də keçinmək olmur. Müstəqillik həyatın bütün sahələrində olduğu kimi, elmin inkişafına da öz müsbət və həlledici təsirini göstərir. Naxçıvan Muxtar Respublikasının muxtariyyət və müstəqillik illəri arasında həm də ciddi səd çəkmək düzgün olmaz. Çünki müstəqillik illərinin özü də muxtariyyət daxilindədir. Ümumiyyətlə isə 1991-ci ildən – ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra hər sahənin sahibi özümüzük. Düzdür, müstəqilliyin ilk illəri "itirilmiş illər" kimi xarakterizə olunur. Çünki səriştəsiz rəhbərlər Azərbaycanı idarə edə bilmədilər, torpaqlarımızla birlikdə çox şeyləri də itirdik. Ulu öndərin siyasi hakimiyyətə qayıdışı ilə vəziyyət, tədricən, sabitləşdirildi, sonra isə hərtərəfli inkişafa rəvac verildi. Eynilə bu, elmin inkişaf tempinə də aiddir. Müstəqillik illərində həm cəmiyyətimiz elmi prinsiplər əsasında idarə edilməyə başlanıldı, həm də elmin tempi artırıldı, elmi müəssisələr yaradıldı, elmi işlə məşğul olan kadr potensialı artdı. Əvvəllər elmi kadrlar, əsasən, Bakıda – akademiyada və ali təhsil müəssisələrində hazırlanırdısa, 1995-ci ildən sonra artıq muxtar respublikamızın özündə bu işə başlanıldı. Yüzlərlə elmi dərəcəli kadrlar hazırlandı, Müdafiə şuraları yaradıldı, çoxsaylı əsərlər yazıldı və sair. Bir sözlə, elmi kadrların sayı artdığı kimi, elmin tempi də artdı.

*– AMEA Naxçıvan Bölməsi muxtar respublikamızın intellekt bazasıdır. Ötən illər bu bazaya hansı uğurlar əlavə edib?*

– AMEA Naxçıvan Bölməsi ulu öndər Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamı ilə yaradılıb. Buna qədər də Naxçıvanda bir neçə elmi qurum var idi. Onlar müxtəlif nazirliklərin və elmi mərkəzlərin tabeliyində az sayda elmi dərəcəli əməkdaşlarla və zəif madditexniki baza ilə fəaliyyət göstərirdilər. Sərəncamdan sonra bu elmi qurumlar Naxçıvan Bölməsində cəmləşdirildi. Bu zaman cəmi 13 nəfər fəlsəfə doktoru var idi. Naxçıvan Bölməsinin inkişafı üçün həm ölkə, həm də muxtar respublika rəhbərliyi səviyyəsində hər cür qayğı göstərildi, madditexniki baza gücləndirildi. Kadr potensialının artırılması qayğısına qalındı. Təbii ki, ziyalı, xüsusilə alim öz intellekti ilə seçilir, söhbət həqiqi alimdən, elmi işçidən gedir. Hər il intellekt bazasına yeni intellektlər daxil olur. Alimlər təkcə elmi dərəcə və elmi adla seçilmirlər, düzdür, bu da inkar olunmur. Alim öz elmi səviyyəsi, nəzəri hazırlığı ilə, apardığı tədqiqatlarla, elmə verdiyi töhfələrlə, yetirdiyi kadrlarla, cəmiyyətdə tutduğu rol və mövqeyi ilə seçilir, intellekt sahibinə çevrilir. Akademiyanın Naxçıvan Bölməsinin intellekt sahibləri – alimləri intellekt bazasına yeni uğurlar gətiriblər. Elmi dərəcəli, elmi titullu, elmi adlı alimlərimizin sayı xeyli artıb. Onların həm kəmiyyətində, həm də keyfiyyətində ciddi dəyişikliklər baş verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hər cür diqqət və qayğısı hesabına akademik, müxbir üzv və elmlər doktorlarının sayı artıb. AMEA Naxçıvan Bölməsindən əvvəl muxtar respublikada cəmi 4-5 nəfər elmlər doktoru çalışırdı, akademik və müxbir üzvlər isə təsəvvürə belə, gətirilmirdi.

*– Muxtar respublikamızın nüfuzlu elm adamı kimi sizin "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" adlı kitabınız muxtariyyətimizin 95 illik yubileyinə ən böyük töhfə oldu. Bəs yubiley ilinə AMEA Naxçıvan Bölməsindən daha nə kimi hədiyyələr gözlənilir?*

– 2019-cu ilin elə ilk aylarında nəşr olunan iki mühüm əsəri yubiley ilinə Naxçıvan Bölməsindən hədiyyə kimi qəbul etmək olar. Bunlardan biri AMEA Coğrafiya İnstitutu ilə birgə hazırladığımız ikicildlik "Naxçıvan Muxtar Respublikasının coğrafiyası" monoqrafiyası, ikincisi isə böyük İslam alimi Nemətullah Naxçıvaninin "Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi" kitabının birinci cildinin dilimizə tərcüməsidir. Əsərin II və III cildləri də bu il işıq üzü görəcəkdir. Bu günlərdə Nemətullah Naxçıvanidən bəhs edən "Nemətullah Naxçıvani: taleyi və sənəti" toplusu da oxuculara təqdim edilib. Naxçıvaninin başqa bir əsərinin də nəşri nəzərdə tutulur. "Naxçıvan Duzdağı", "Naxçıvan tarixi mənbələrdə", "Araz-Türk Respublikası" və digər onlarla kitab və monoqrafiyalar, yüzlərlə elmi məqalələr hazırlanır. Qeyd edim ki, hər il akademiyanın Naxçıvan Bölməsinin elmi əməkdaşlarının 30-50 kitab və monoqrafiyası, 750-800 elmi məqaləsi nəşr olunur. Naxçıvan Muxtar Respublikasının bu yubiley ilinə elmi işçilərimiz də əsərləri ilə öz töhfələrini verəcəklər.

*– İsmayıl müəllim, son olaraq fikirlərinizi öyrənmək istəyirəm. Sizcə, tarixin bütün dönəmlərində cəmiyyətin inkişafını elmsiz təsəvvür etmək olarmı?*

– Təbii ki, yox. Ən qədim insanlar belə, müəyyən biliklərə malik olmuş və yaşayışında həmin biliklərdən istifadə etmişlər. İnsan cəmiyyətinin ilk dövrlərində elmin nə olduğunu bilmək zərurəti yox idi, lakin cəmiyyət inkişaf etdikcə təbiət hadisələrinə maraq, öyrənmək həvəsi artmış və nəticədə, biliklərə istinad olmuş və biliklər məcmusu formalaşmışdır ki, biz bunu elm adlandırırıq. Cəmiyyətin inkişafına uyğun elm yaranır. Orta əsrlər elmi qədim dünyada olmadığı kimi, müasir elm də yeni dövrdə ola bilməzdi. Tarixin bütün dönəmlərində cəmiyyətin inkişafı elmi də inkişaf etdirir. Elm inkişaf etməsə, cəmiyyət də lazımi səviyyədə inkişaf edə bilməz. Elm və texnologiya cəmiyyətin məhsuludur. Həm də cəmiyyət elmə əsaslanırsa, inkişaf asanlaşır, qarşıya qoyulan məqsədə nail olunur. Bir sözlə, istənilən cəmiyyətin inkişafını elmsiz təsəvvür etmək olmaz. Həyatın qanunu budur ki, əvvəl bilib sonra iş görmək daha məqsədəuyğundur. Cəmiyyət kortəbii inkişaf etmək istəmirsə, elmə, biliyə əsaslanmalıdır.

*– Maraqlı müsahibə üçün sağ olun.*

**✍ Mətanət MƏMMƏDOVA**

***Bu müsahibə "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür.***

## Gənclər Fondunun təşkil etdiyi tədbirlərdə 1421 gənc iştirak edib



*Naxçıvan Muxtar Respublikası Gənclər Fondu fevral ayında gənclərin intellektual potensiallarının artırılması, milli dəyərlərimizin onlara aşılanması və asudə vaxtlarının səmərəli təşkil olunması istiqamətində bir sıra işlər görmüşdür.*

2 fevral – Gənclər Günü münasibətilə tədbir keçirilmiş, muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən 24 istedadlı gənc mükafatlandırılmışdır. Həmçinin fevralın 2-də Naxçıvan Şəhər İcra Hakimiyyəti və Gənclər Fondunun birgə təşkilatçılığı ilə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində 270 gəncin iştirakı ilə Gənclər Gününə həsr edilmiş tədbir olmuşdur. 4-8 və 11-15 fevral tarixlərində isə ali və orta ixtisas təhsili müəssisələrinin fəal tələbələrinin asudə vaxtlarının səmərəli təşkil olunması məqsədilə Ağbulaq İstirahət Mərkəzində gənclərin "Qış məktəbi" təşkil olunmuş, ümumilikdə, 96 tələbənin istirahəti təmin edilmişdir. Məktəblilərin kinofilmlərə olan marağının artırılması, milli kino barədə biliklərin yoxlanması məqsədilə ümumtəhsil məktəblərinin şagirdləri arasında "Milli filmlərimiz" kinoviktorinası təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikasının yaranmasının 95-ci ildönümü münasibətilə gənclər arasında müxtəlif tədbirlər təşkil edilmişdir. Belə ki, Gənclər Mərkəzində Memarlar Birliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Qürur yerim Naxçıvanım" adlı sərgi açılmışdır. Sərgidə 10 memarın 45 layihəsi və muxtar respublikamızda müasir üslubda inşa olunan tikililərin fotoları yer almışdır. Həmçinin muxtar respublikada təhsil alan 30 xarici tələbənin iştirakı ilə "Mən Naxçıvan haqqında nə bilirəm?" mövzusunda keçirilən bilik yarışması da maraqla qarşılanmışdır. "Naxçıvan Muxtar Respublikası – 95" devizi altında muxtar respublikada fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrinin komandaları arasında "Xəmsə" milli intellektual oyunu da keçirilmişdir. Fond tərəfindən Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi münasibətilə "Muxtariyyətin quruculuq, inkişaf və sabitlik dövrü" mövzusunda yaradıcılıq müsabiqəsi və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi ilə birgə "Naxçıvan Muxtar Respublikası – 95" devizi altında rəsm müsabiqəsi elan edilmişdir. Həmçinin "Gənc beyin" ən yaxşı mobil tətbiqetmə və ən yaxşı proqram müsabiqələrinə də start verilmişdir.



Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə 600-ə yaxın gəncin iştirakı ilə "Nəsimi həftəsi" keçirilmişdir. Həftə ərzində gənclərin Xanəgah Abidə Kompleksinə ekskursiyası olmuş, Həsən Seyidbəylinin "Nəsimi" tarixi filminin nümayişi, Xalq şairi Qabilin "Nəsimi" poemasının müzakirəsi, İmadəddin Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyunu, "Poeziyamızın fatehi" bədii qiraət müsabiqəsi, "Nəsimi kəlamının işığında" adlı ədəbi-bədii gecə maraqla qarşılanmışdır.

Gənclərin müstəqil düşünməsi, onlarda özünəinam, şəxsi inkişaf və məqsədlərin müəyyənləşdirilməsi keyfiyyətlərinin formalaşdırılması da daim diqqətdə saxlanılır. Kəngərli rayonunda 30 gəncin iştirakı ilə keçirilmiş "Motivasiya və uğur" fərdi inkişaf təlimi bu baxımdan mühüm əhəmiyyətə malik olmuşdur. Bundan başqa, fevralın 21-i və 27-də Naxçıvan şəhərində bir qrup gəncin təşəbbüsünə əsasən Gənclər Fondunun Daxili İşlər Nazirliyi ilə birgə keçirdiyi yol hərəkətinin təhlükəsizliyi ilə bağlı "Diqqət, piyada!" aksiyalarına 100-ə yaxın tələbə-gənc qatılmışdır. Ötən ay "Xocalı" sosial maarifləndirici videoçarx müsabiqəsinin qalibləri də mükafatlandırılmışdır. Həmçinin oxunması zəruri olan kitabların gənclər arasında mütaliəsinə nail olunması məqsədilə "Görüş yeri" kafesində 25 gəncin iştirakı ilə oxunması zəruri olan kitablardan Qurban Səidin "Əli və Nino" kitabının müzakirəsi olmuşdur.

Gənclər Fondunun təşkil etdiyi tədbirlərdə, ümumilikdə, 1421 gənc iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu**

## Uşaqlarımızın sağlamlığı həm də sağlam gələcək deməkdir



***Ölkəmizdə səhiyyənin inkişafı yönündə məqsədyönlü və ardıcıl tədbirlər görülür, həkim və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, ixtisaslı və peşəkar həkim kadrlarının hazırlanması diqqət mərkəzində saxlanılır. Bütün bunlar isə Azərbaycan səhiyyəsinin yeni inkişaf mərhələsinə qədəm qoymasına stimul olub. Muxtar respublikamızda da səhiyyənin müasir tələblər səviyyəsində inkişafı təmin edilib. Səhiyyə müəssisələri üçün hər il yeni binalar inşa olunur, tibb ocaqları müasir avadanlıqlarla təchiz edilir. Bu yaxınlarda Şərur Rayon Uşaq Xəstəxanasının istifadəyə verilməsi də görülən işlərin davamıdır. Səhiyyə ocağı ilə tanış olmaq üçün oraya üz tutur, baş həkim Günay Quliyeva ilə həmsöhbət oluruq.***

Günay həkim bildirir ki, xəstəxanada stasionar şöbə, poliklinika bölməsi və yoluxucu xəstəliklər üçün izolyator fəaliyyət göstərir. Stasionar şöbə 3 palata, reanimasiya və intensiv terapiya, uşaqlar üçün oyun və işçilər üçün otaqlardan ibarətdir. Poliklinika bölməsi birinci və ikinci mərtəbələrdə yerləşir. Birinci mərtəbədə qeydiyyat, dispanserizasiya, təcili tibbi yardım və manipulyasiya, stomatoloq, stomatoloq-ortodont, fizioterapiya, laboratoriya, ultrasəslə müayinə, kardiorevmotoloq, nevropatoloq, cərrah-travmatoloq, qəbul üzrə həkim, sahə pediatrları və sahə tibb bacıları, peyvənd və BÇJ kabinələri, yeməkxana, mətbəx, camaşırxana, texniki işçilər üçün otaqlar vardır.

Həkim onu da qeyd edir ki, yoluxucu xəstəliklər üçün izolyator da birinci mərtəbədədir. İkinci mərtəbədə oftalmoloq, LOR, endokrinoloq-allerqoloq, derma-toveneroloq, ginekoloq, ftiziatr-infeksionist, psixoloq-loqoped, baş həkim, mühasibatlıq və metodist üçün otaqlar yerləşir. Burada mərkəzi oksigen sistemi yaradılaraq reanimasiya və intensiv terapiya, palata, təcili tibbi yardım və manipulyasiya otaqlarına verilib. Xəstəxanada stasionar ultrasəslə müayinə cihazı, 2 stomatoloji qurğu, elektrokardioqrafiya, elektroensefaloqrafiya, hematoloji, biokimyəvi, EÇS təyini, qlükometr, avtoanalizatorlar, mikroskop, sentrifuqa, termostat, reanimasiya üçün kardiomonitorlar, elektrosoruco, ambu süni tənəffüs aləti, oksigen konsentratoru, pulsoksimetr, fizioterapiya kabinəsi üçün elektro və ultrasəs müalicə, ultrayüksəktezlikli cərəyanla müalicə, darsonval, inqalyator cihazları, solyuks, soyuq və isti kvars lampaları, parafinqızdırma qazanı quraşdırılıb.

Səhiyyə ocağında oftalmoloji kabinə üçün şirim lampası, oftalmoloji proyektor, dioptrimetr, oftalmoskop, retinoskop, görmə itiliyinin korreksiyası üçün linza dəsti, keratorefraktometr, sterilizasiya üçün avtoklav, quru hava sterilizatorları, bakteriosid lampalar, paketləmə cihazı, LOR əməliyyat dəsti qoyulub, eləcə də yeni təcili tibbi yardım avtomobili verilib.

Baş həkim bildirir ki, xəstəxananın əsas vəzifələrindən biri də yoluxucu xəstəliklərin qarşısını almaq üçün qoruyucu profilaktik peyvəndlərin vaxtında aparılmasını təşkil etməkdir. Peyvəndləmə prosesinin xəstəxana tərəfindən yüksək səviyyədə təşkili uşaqların sağlam böyüməsi məqsədi daşıyır. Günay həkim onu da xüsusi vurğuladı ki, bəzi valideynlər peyvənd haqqında tam məlumatlı olmadığından ondan ehtiyat edir, uşaqlarını bu tibbi prosedurdan uzaq tutmağa çalışırlar. Bu səbəbdən də sahə tibb bacıları tərəfindən valideynlər arasında maarifləndirici tədbirlər aparılır, peyvəndin vacibliyi onlara izah olunur. Peyvənd infeksiyaya qarşı immuna cavab yaratmaqda uşağa kömək edir. Nəticədə, uşaq infeksiyaların əksəriyyətindən müdafiə olunur. Peyvəndin uşaqların sağlamlığı üçün vacibliyini nəzərə alaraq 2 aylıqdan 6 yaşına kimi bu işi davam etdiririk.

Günay həkim deyir ki, xəstəxanada uşaqlar üçün elektron sağlamlıq kartları açılır. Bu kartlarda uşaqların bütün inkişaf göstəriciləri, onlara vurulan peyvəndlər və digər məlumatlar yer alır. Muxtar respublikadan dünyanın istənilən yerinə səyahət edən valideynlər uşağın səhhətində problemlər yaranacağı təqdirdə bu kartı istənilən səhiyyə ocağına təqdim edə və beləliklə də, müayinə və müalicənin aparılmasına nail ola bilərlər.



Uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biridir. Bu istiqamətdə görülən işlərin, aparılan islahatların məntiqi davamı kimi uşaqlar icbari dispanserizasiyaya cəlb edililər. Burada nümunəvi tibbi informasiya sistemi yaradılıb, 12 kompüter qoyulub. Bu da xəstələrin qeydiyyatının elektron formada aparılmasına, eləcə də onlar haqqında məlumatların Səhiyyə Nazirliyindən, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən və icbari tibbi sığortanın tətbiq olunduğu digər xəstəxanalardan birbaşa izlənilməsinə imkan verir.

Xəstəxananın Reanimasiya şöbəsində xəstələrdən birinin valideyni Kəmalə Heydərova ilə həmsöhbət olduq. O dedi ki, qızını yüksək qızdırma, tənəffüs çatışmazlığı ilə buraya gətiriblər. Həkim və tibb bacılarının köməyi ilə vəziyyəti getdikcə yaxşılaşır.

Valideyn onu da diqqətimizə çatdırır ki, xəstəxananın qapısından girər-girməz dövlətin səhiyyəyə göstərdiyi qayğı tam əyaniliyi ilə nəzərə çarpır. Sovetlər dönəmində bu cür gözəl, yaraşıqlı, lazımi avadanlıq və cihazlarla təchiz edilən tibb ocağı barədə danışmaq belə, olmazdı. Bu gün isə müstəqil dövlətimiz gücləndikcə təkcə şəhər mərkəzində deyil, kəndlərimizdə də müasir səhiyyə ocaqları inşa olunur, bu da əhalinin sağlamlığının qorunmasında, onlara tibbi xidmətin göstərilməsində böyük rol oynayır.

Xəstəxananın baş həkimi onu da qeyd etdi ki, 25 yanvar 2019-cu ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Şərur rayonunda icbari tibbi sığortanın tətbiqinin təmin olunması, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə Şərur rayonunda icbari tibbi sığortanın tətbiq edilməsi və Şərur Rayon Mərkəzi və Uşaq xəstəxanalarına publik hüquqi şəxs statusu verilməsi ilə bağlı Sərəncam imzalayıb. Həmin sərəncama əsasən 2019-cu il iyunun 1-dən həmin publik hüquqi şəxslərin fəaliyyətləri təmin ediləcək.

Allahın ən gözəl hədiyyəsi də, sınağı da övladdır. Hər bir valideyn övladının qayğısına qalır, onun xəstə olmaması üçün əlindən gələni edir. Amma bəzən ata və ananın qayğısı, diqqəti uşaqlarımızı xəstəliklərdən uzaq tutmağa kömək edə bilmir. Bu zaman isə valideynlərin ən yaxın köməkçisi Hippokrat andı içmiş ağxalatlı mələklər olur. Yaradılan müasir şərait də həkim və tibb bacılarının işinin daha da keyfiyyətli olmasına imkan verir. Şərur Rayon Uşaq Xəstəxanasının müasir tibbi avadanlıqlarla təchiz edilməsi, bu avadanlıqla diaqnozların dəqiq qoyulması, müayinə və müalicələrin səmərəli aparılması üçün ağxalatlı peşə sahiblərinin insan sağlamlığı kimi mühüm və xeyirxah bir missiyanı uğurla həyata keçirmələrinə şərait yaradır. Bu da onu deməyə əsas verir ki, gələcəyimiz olan uşaqların sağlamlığı etibarlı əllərdədir. Uşaqlarımızın sağlamlığı isə həm də sağlam gələcək deməkdir.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Əmək pensiyaçılarının pensiyaları artırılaraq 160 manata çatdırılacaq

Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar kursunun uğurlu nəticələri, xüsusilə qeyri-neft iqtisadiyyatında ardıcıl artım tempinin özünü göstərməsi respublikamızın müasir standartlara cavab verən və vahid prinsiplər əsasında fəaliyyət göstərən sığorta-pensiya sisteminin inkişafı istiqamətində də növbəti irəliləyişlərin əldə olunması ilə müşahidə edilir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2019-cu il 19 fevral tarixdə imzalanmış "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa əsasən, "Əmək pensiyaları haqqında" Qanunun 6-1-ci maddəsinin (Əmək pensiyasının minimum məbləği) mətni yeni redaksiyada verilmiş və nəticədə əmək pensiyasının minimum məbləği 2019-cu il 1 mart tarixindən artırılaraq 160 manat məbləğində müəyyən olunmuşdur.

Bu qanuna edilmiş dəyişikliklə əmək pensiyasının minimum məbləğindən aşağı məbləğdə əmək pensiyası alan bütün növ əmək pensiyaçılarının pensiyalarının məbləği 160 manata çatdırılacaqdır. Məlumat üçün bildirilir ki, ölkə başçısının təşəbbüsü ilə əmək pensiyasının minimum məbləğinin əhəmiyyətli şəkildə artırılması nəticəsində muxtar respublika üzrə 4357 nəfər yaşa, 6560 nəfər əlilliyə, 413 nəfər ailə başçısını itirməyə görə, ümumilikdə, 11330 nəfər aşağı məbləğdə əmək pensiyası alan pensiyaçıların pensiyalarının məbləği 160 manata çatdırılacaqdır.

Pensiyanın minimum məbləğinin artımı 1 mart 2019-cu il tarixindən hesablanacaq və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən qanunvericiliyə uyğun plastik bankomat kartları və poçt şöbələri vasitəsilə pensiyaçılara pensiyalar artımla ödəniləcəkdir.

Bu artımların ödənilməsinin həyata keçirilməsinə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun büdcəsindən cari ilin 10 ayı üzrə hər ay orta hesabla 267 min manat əlavə vəsait yönəldiləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

## Beynəlxalq təlim-seminarda muxtar respublika barədə təqdimat olub

*Qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Yaponiyanın Obihiro şəhərində "Kənd təsərrüfatı siyasəti" mövzusunda təlim-seminar keçirilib.*

Seminara Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Sənaye şöbəsinin baş məsləhətçisi İlqar Quluzadə Azərbaycan nümayəndə heyətinin tərkibində seminarda iştirak edib.

Seminarın proqramına mühazirələr, müzakirələr, Yaponiyanın kənd təsərrüfatyönümlü istehsal müəssisələri ilə tanışlıq, sahə turları daxil olunub. İştirakçılar Obihiro şəhərinə səyahət edib və Kavanasi, İqasi kooperativləri ilə tanışlıq imkanı qazanıblar. Müasir kənd təsərrüfatının inkişafı, kənd təsərrüfatı kooperativlərinin fəaliyyətinin təşkili, ənənəvi kənd təsərrüfatına dəstək, ağıllı kənd təsərrüfatı sistemləri, kənd təsərrüfatında ekoloji normaların qorunması mövzularında mühazirələr dinlənilib və müzakirələr aparılıb.

Sonda ölkəmiz, o cümlədən muxtar respublikamız haqqında, xüsusən də kənd təsərrüfatının müxtəlif sahələrinin statistik göstəriciləri barədə təqdimat olub, nümayəndə heyətinin üzvlərinə sertifikatlar verilib.

**Xəbərlər şöbəsi**

*Hər kəs yüz il yaşamasa*

# Ömür kitabının 114 səhifəsi

*(oçerk)*

***Aqillər deyirlər ki, insan ömrü kitab kimidir, dünyaya göz açdığı andan səhifələri yazılmağa başlayır. O vərəqlərdə sevinc də var, kədər də, yaxşılıq da əks olunur, pislik də. Bütün əsərlər kimi, insan ömrü də mərhələli şəkildə davam edərək gec-tez sona çatır. Ancaq bir həqiqət odur ki, hər əsər uzun davam edə bilmədiyi kimi, hər kəsə də uzun ömür sürmək nəsib olmur. Unutmaq olmaz ki, həyat bir sınaqdır. Bu sınaq insan övladından həm mənəvi, həm də fiziki güc tələb edir. Məhz bu güc sayəsində yaşadığın hər gün nəyə isə nail olmaq naminə çalışır, əlləşib-vuruşursan.***



Bir vaxt gözünü açanda artıq ömrün-günün çoxunun getdiyi məlum olur. Ahıl çağlarında dönüb keçmişə boylananda xatirələr yada düşür. Görürsən ki, Tanrı hədiyyəsi saydığımız ömür payından qazandıqların da az deyil, itirdiklərin də. Elə ömrünün 114-cü ilini yaşayan Gülxanım nənə kimi. Onunla Babək rayonunun Uzunoba kəndində, yaşadığı evdə tanış oldum. Söhbət əsnasında nənənin ömür kitabını vərəqlədik, olanlardan-keçənlərdən danışdıq.

Bəhs olunan ünvanda məni nənənin qızı Mədinə xanım qonaqpərvərliklə qarşılayır, "xoş gəldin", – deyib evə dəvət edir. Gülxanım nənəni görcək nurani çöhrəsindəki ilıq bir təbəssüm, üzündəki ötən ömründə yaşadığı sevincin, kədərin izləri gizlənən qırışlar diqqətimi çəkir.

– Salam, Gülxanım nənə, səni görməyə gəlmişəm.

– Əleykəssalam, xoş gəlmisən, ay bala, ayaqların var olsun, buyur, keç əyləş.

– Əhvalınız necədir?

– Ay oğul, ələyam, – desəm, yalan olar, ömrümün, günümün bu çağında tam gümrah, sağlam görünməyim qeyri-mümkündür. Ancaq, şükürlər olsun ki, səhhətimdən elə də ciddi şikayətim yoxdur. Allah cəmi övladları saxlasın, uşaqlar vaxtlı-vaxtında qeydimə qalırlar, dövlətimiz də yaxşı pensiya kəsib, maddi cəhətdən çətinliyim yoxdur.

Gülxanım nənə ilə söhbətimizi süfrə arxasında davam etdiririk. Öyrənirəm ki, 1905-ci il yanvarın 25-də dünyaya göz açan Gülxanım Allahverdiyeva neçə-neçə müharibələr görüb, qanlı-qadalı illərə şahidlik edib. Atası, 125 il ömür sürən Gülmalı kişi dövrünün şairi olub, şeirlərində doğma diyarımızın vəsflərinə geniş yer verib. Gülxanım nənə hələ gənclik çağlarından zəhmətə qatlaşıb, qarşılaşdığı çətinliklərə təkbaşına sinə gərməyi bacarıb. Ağrılı-acılı illər nənənin xarakterini də formalaşdırıb, mənən vüqarlı, fiziki cəhətdən möhkəm, dözümlü olub. İndi o illəri belə xatırlayır:

– Gənclik çağlarımdan işgüzarlığa öyrəşmişəm. Kolxozda üzüm yetişdirmişəm, pambıq, tütün becərmişəm, halal zəhmətimlə çörək qazanmağa çalışmışam. Yaxşı günlərim də, yaman günlərim də az olmayıb. Həyatın ağ üzünü də, qara üzünü də çox görmüşəm. Atalarımızdan belə bir deyim var ki, ağ gün insanı ağardar, qara gün qaraldar. Elə ötən əsrin 90-cı illərində də biz naxçıvanlılar qara günləri çox gördük. Bir tərəfdən mənfur düşmənimiz torpağımıza göz dikdi, neçə-neçə mərd oğullarımız şəhid oldu, digər tərəfdən qazsız, işıqsız günlər keçirdik, yeməyə çörəyimiz, içməyə suyumuz olmadı. Hərdən qıtlıq çəkdiyimiz illər yadıma düşür, övladlarıma belə firavan yaşayışın, gözəl günlərin qədir-qiymətini bilmələrini tövsiyə edirəm.

Öyrənirəm ki, 20 yaşında Ərrəhman Allahverdiyevlə ailə həyatı quran müsahibim indiki yaşadığı Uzunoba kəndinə köçüb. Dövrünün zəhmətkeş insanlarından olan Ərrəhman kişi İkinci Dünya müharibəsində iştirak edib, müharibədən ayağı yaralanaraq qayıdıb. Həmin ağrılı-acılı dövrdə maddi və mənəvi sıxıntılar çəkən Gülxanım nənə böyük zəhmət hesabına qazandığı halal çörəklə övladlarını böyüdüb.

Tarixin müxtəlif dönəmlərində insanlar uzunömürlülüyün sirlərini açmağa çalışsalar da, buna müvəffəq olmayıblar. Elə bu səbəbdəndir ki, keçmişdən günümüzədək xalq arasında uzun ömür yaşamaqla bağlı çox sayda deyimlər, duyumlar gəlib çatıb. Dirilik suyu, həyat ağacı, uzunömürlülük meyvəsi ilə bağlı xalq arasında əfsanələr, əsatirlər, rəvayətlər, nağıllar el-el, oba-oba yayılıb. Lakin Gülxanım nənə üçün uzunömürlülüyün sirri başqadır. O deyir ki, uzun ömür sürməyinin başlıca səbəblərindən biri diyarımızın çox gözəl təbiətə, təmiz havaya, saf suya malik olmasıdır. Hər kəs uzun və sağlam ömür yaşamaq istəyirsə, gündəlik həyatında iki amilə diqqət yetirməlidir: daim hərəkətdə olmalı və sağlam qidalanmalı.

Övladları deyir ki, Gülxanım nənə gün ərzində çaya yox, daha çox su içməyə meyil göstərir. Səhər süfrəsindən bal, yağ, qaymaq, yumurta əskik olmur. Gənc yaşlarından yemək rasionunda dağlarımızda, düzlərimizdə bitən şəfalı bitkilərə geniş yer verən nənə indi də yazın gözü açılan kimi övladlarını həmin otlardan toplamağa göndərir. Nənə kiçik yaşlarından namaz qılıb oruc tutmasını da sağlamlığının cövhəri hesab edir. Bu barədə deyir:

– Əbəs yerə deyilməyib ki, iş insanın cövhəridir, hərəkət harada, bərəkət orada. Yaşımın bu çağında da daim hərəkətdəyəm, bir işin qulpundan yapışmağa çalışıram. Namazın, orucun da vaxtını keçirmirəm. Hər gün dan yeri sökülməmişdən yuxudan ayılır, səhərin təmiz havasından sinəmə çəkirəm. Yeməyimdə də daim təbii qidalara üstünlük verirəm. Düşünürəm ki, belə sağlam və gümrah qalmağımda yediyim yeməklərin də rolu böyükdür. Günümüzdə məktəbyaşlı uşaqların xəstələnməyi ilə bağlı teztez eşidirəm. Bizim dövrdə bu yaşda xəstələnmə çox nadir hallarda baş verərdi. Fikrimcə, bu gün yayılan yoluxucu xəstəliklərin səbəbi də elə ən çox süni qidalardır. Övladlarıma da bacardıqca belə qidalardan istifadə etməməyi, bütün ərzaqları özlərinin hazırlamalarını məsləhət görürəm. Yeri gəlmişkən onu da deyim ki, Uca Yaradan mənə 7 övlad, 25 nəvə, 18 nəticə bəxş edib. Çoxunun xeyir işində iştirak etmişəm. Tez-tez məni görməyə gəlirlər. Dövlət işçiləri də mənə tez-tez baş çəkir, qayğılarımla maraqlanırlar. Bütün bunlara görə dövlətimizə minnətdaram.

Həyat, yaşamaq elə gözəl hissdir ki, onu hansısa sözlə tam mənada ifadə etmək mümkün deyil. Ömür kitabının 114-cü səhifəsini yaşayan Gülxanım nənəyə daha firavan günlər arzulayaraq onlardan ayrılıram. Yolboyu düşünürəm ki, Uca Yaradan tərəfindən yazılan ömür kitabı adlandırdığımız tale, qismət və alın yazısıdır. Təbii ki, əsərin nə zaman sona yetəcəyini də elə onu yaradan müəllif gözəl bilər.

**Nail ƏSGƏROV**

## "Ağıllı uşaq" əyləncəli intellektual oyunu



*Naxçıvan şəhər 10 nömrəli uşaq bağçasının məktəbəqədər hazırlıq qruplarında olan 5-6 yaşlı uşaqlar arasında "Ağıllı uşaq" əyləncəli intellektual oyunu keçirilib.*

Tədbirin keçirilməsində məqsəd uşaqların zehni inkişafının stimullaşdırılması, onların asudə vaxtlarının səmərəli təşkili, intellektual oyunlara uşaqların marağının artırılması, əqli qabiliyyətlərinin və məntiqi düşüncələrinin inkişaf etdirilməsi olub. İki mərhələdən ibarət oyunda 4 komanda iştirak edib. Birinci mərhələdə uşaqlar butona basmaqla 35, ikinci mərhələdə isə onlara təqdim olunan 5 şəkili sualı cavablandırıblar.

Sonda daha çox suala düzgün cavab verən "Əlincə qalası" komandası qalib adını qazanıb. "Gülüstan" komandası ikinci, "Möminə xatın" və "Nuh yurdu" komandaları isə üçüncü olub.

Qaliblərə təşkilatçılar tərəfindən diplom, fəxri fərman və rəngli kitablar təqdim olunub. Daha sonra uşaqların iştirakı ilə yallı rəqsi nümayiş etdirilib.

İntellektual oyun Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Babək rayonunun Nehrəm kəndində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir keçirilib. Tədbiri Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Lalə Məmmədova açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.*

## *"Reproduktiv sağlamlıq və ailə dəyərləri"* mövzusunda tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova qadınların sağlamlığının qorunması, yeni nəslin sağlam doğulması üçün nikahdan əvvəl tibbi müayinənin əhəmiyyətini vurğulayıb.

Qeyd edilib ki, nikaha daxil olarkən tərəflər lazımi tibbi müayinədən keçmədikdə bu nikahlardan çox zaman sağlamlıq imkanları məhdud uşaqlar dünyaya gəlir. Aparılan təhlillərə görə Babək rayonu üzrə 26 min 939 uşaq vardır ki, bu uşaqlardan da 371-i sağlamlıq imkanları məhdud uşaqdır. Bu da ümumi uşaqların 1,38 faizini təşkil edir. Muxtar respublika üzrə 1937 sağlamlıq imkanları məhdud uşaq vardır ki, bu uşaqların da 19,1 faizi Babək rayonunun payına düşür.

"Qadınlarda virus hepatitlərinin fəsadları, bətn daxilindəki uşağın xəstəlikləri və onlarla mübarizə yolları" mövzusunda isə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva çıxış edib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*İdman*

## Kikboksinq birinciliyinə yekun vurulub



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 5 mart – Bədən Tərbiyəsi və İdman Günü münasibətilə yeniyetmələr (2005-2006-cı illər) arasında kikboksinq üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.

Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən açıq birincilikdə Naxçıvan şəhərinin idmançıları ilə yanaşı, Şərur, Babək, Culfa və Kəngərli rayonlarının idmançıları da iştirak ediblər. Birincilikdə 6 çəki dərəcəsi üzrə 50-yə yaxın idmançı mübarizə aparıb.

Yarışın yekun nəticəsinə əsasən Sadiq Hacıyev (36 kiloqram, Naxçıvan), Raiq Rəcəbli (39 kiloqram, Naxçıvan), Şəmsəddin Əliyev (42 kiloqram, Naxçıvan), Səhət Əsədov (45 kiloqram, Naxçıvan), İsmayıl Yaqubov (48 kiloqram, Naxçıvan) və Cəfər Novruzov (51 kiloqram, Naxçıvan) bütün rəqiblərini üstələyərək birinciliyin qalibi olublar.

Sonda hər çəki dərəcəsində I, II və III yerləri tutan idmançılara diplom və hədiyyələr təqdim edilib.

## Cüdoçularımızdan daha 3 medal





*Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri daha bir uğura imza atıblar.*

Belə ki, Bakı şəhərində usta cüdoçular arasında Azərbaycan birinciliyi keçirilib. İdmançımız Elnur Mirzəliyev 60 kiloqram çəki dərəcəsində gümüş medal qazanıb.

Bununla yanaşı, gənclər arasında keçirilən ölkə birinciliyinə də yekun vurulub. Oğlanların mübarizəsində Abdulla İsmayılov 100 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. Elə qadın idmançımız Zəhra Akkuş da eyni uğuru təkrarlayıb. İdmançımız çempionatda bu ada 57 kiloqram çəki dərəcəsində müvəffəq olub.

Sonda idmançılarımız təşkilatçılar tərəfindən diplom və medalla mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Elan

Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi və Bəstəkarlar Təşkilatının birgə təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş "Səni tərənnüm edirəm, doğma Naxçıvan!" devizi altında mahnı müsabiqəsi keçiriləcəkdir. Müsabiqənin əsas məqsədi qədim diyarımız Naxçıvanın təbiətini, maddi-mənəvi zənginliklərini, yetirdiyi dahi şəxsiyyətləri tərənnüm edən yeni mahnıların yazılmasıdır. Müsabiqədə professional və həvəskar bəstəkarlıqla məşğul olan yaşı 18-dən yuxarı şəxslər iştirak edə bilərlər.

Bir turdan ibarət olan müsabiqənin qaliblərinin mükafatlandırılması üçün professional və həvəskar bəstəkarlar nominasiyaları olmaqla, hər biri üzrə bir I yer, bir II yer və bir III yer təsis edilmişdir. Qaliblərin mükafatlandırılması üçün I yer – 1000 AZN, II yer – 500 AZN, III yer – 250 AZN mükafat fondu ayrılmışdır.

Müsabiqədə iştirak etmək istəyənlər 2019-cu il sentyabr ayının 10-dək Təşkilat Komitəsinə ərizə ilə müraciət edə bilərlər ***(Telefon: 036-545-02-54).*** Musiqi əsərlərinin notu çap şəklində ərizəyə əlavə olunmalıdır.

Müsabiqə zamanı bəstəkar əsərləri solist və ya xorun ifasında canlı olmaqla hər hansı orkestr, ansambl və ya konsertmeysterin müşayiəti ilə təqdim edilməlidir. Müsabiqənin 2019-cu il oktyabr ayının ikinci yarısında Naxçıvan şəhərində keçirilməsi nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi***
***Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı***

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 174